**Orucoğlu, Z.** Şəhidlik zirvəzində // 525-ci qəzet. - 2025. - 6 may. - **№ 77**. - S. 13.

**Azərbaycanın minlərlə qəhrəman oğlu kimi, Camal Əliyevi də şəhidlik zirvəsinə ucaldan Vətən sevgisi oldu. Cəmi 21 yaş yaşamasına baxmayaraq, gələcək nəsillərə örnək biri oldu.**

Cəlilabad şəhərində anadan olan Camal Mehman oğlu Əliyevi vətənin düşmən tapdağı altında olması rahat buraxmırdı. Camal qəlbində doğma torpağa məhəbbət, yağıya nifrət hissi ilə həqiqi hərbi xidmətə yola düşəndə böyük inamla dost-tanışına deyir: "Əsir Qarabağımız yolumuzu gözləyir. Şuşaya üçrəngli qələbə bayrağımızı sancıb hamınızın başını uca edəcəyəm".

Əsgər Camal düşmənlə üzbəüz, ön cəbhədə qulluq edir. Ana qədər əziz bildiyi doğma Vətəni gözbəbəyi kimi qoruyur, təlimlər zamanı cəsurluğu, çevikliyi əsgər yoldaşlarına nümunə göstərilir. Ədalətli, təmiz ürəkli, vicdanlı oğul düşmənlərə də öz gücünü göstərir. Bir də "Tezliklə düşməni müharibə meydanında məğlub edəcəyik, qalib adımız bütün dünyaya yayılacaq" - deyir.

Camal Vətən uğrunda şəhid olmağı özünə şərəf bilir, doğma torpağa ürəkdən bağlanır. Hər dəfə verilən tapşırıqları yerinə yetirməyə başlayanda elinin mərd oğlunun yurduna, dövlətinə, xalqına sevgisi duyğuların ən ülvisi olur, qəlbindəki düşməndən qisas yanğısı isə birə beş artır. Vətən, torpaq naminə döyüşmək könül dünyasında ən müqəddəs duyğuya çevrilir. Yağı düşmənə qan uddurmaq üçün hazır durur və vətən sevgisinə tapınmaqla odun-alovun içinə atılır.

Nəhayət, cənnət-məkan Qarabağımızı azad etmək, düşməndən intiqam almaq vaxtı çatır. Ən böyük arzusu işğal olunmuş torpaqlardan düşmənləri qovmaq olan Camal Əliyev birincilər cərgəsində müharibə meydanına girir. Mərdliklə, rəşadətlə vuruşur, dəfələrlə ölümün kandarından geri dönür. Cəbrayılın və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə yağıdan ürəyincə intiqam ala bilir. Oktyabrın 14-də Füzulidə gedən döyüşlərdə şəhid olur. Cəlilabad şəhərində dəfn olunan şəhid Camal Əliyev Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edilir.